Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ**

**MALİYYƏ BAZARLARININ HÜQUQİ TƏMİNATI DEPARTAMENTİ HAQQINDA**

**Ə S A S N A M Ə**

**BAKI - 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Maliyyə bazarlarının hüquqi təminatı departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, Mərkəzi Bankın İdarə Heyətinin və daxili komitələrinin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları, eləcə də dövlət orqanları (qurumları) ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi ölkədə maliyyə bazarlarının tənzimlənməsi və nəzarəti sahəsində Mərkəzi Bankın qanunla müəyyən edilmiş funksiya və səlahiyyətlərinin qanunvericiliyə uyğun həyata keçirilməsinə hərtərəfli hüquqi yardımın göstərilməsi, habelə müvafiq sahələrdə Mərkəzi Bankın normayaratma fəaliyyətinin qanunvericilik prinsiplərinə uyğunluğunun təmin olunması üçün effektiv koordinasiyasıdır.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. maliyyə bazarlarının tənzimlənməsi və nəzarəti sahəsində qanunların, digər normativ hüquqi aktların və normativ xarakterli aktların tətbiqinə zəruri hüquqi yardımın göstərilməsi;

3.2. Mərkəzi Bankın maliyyə bazarları üzrə normayaratma fəaliyyətində, o cümlədən müvafiq sahələrdə normativ hüquqi və metodoloji bazanın formalaşdırılması və təkmilləşdirilməsində iştirak edilməsi, qanunvericiliyə uyğun olaraq hüquqi aktların layihələrinin məcburi hüquqi ekspertizasının həyata keçirilməsi;

3.3. aidiyyəti hüquqi məsələlərlə bağlı digər şəxslərlə münasibətdə Mərkəzi Bankın qanuni maraqlarının hüquqi müdafiəsinin təmin olunması;

3.4. dövlət orqanlarından (qurumlarından) Mərkəzi Banka daxil olan hüquqi aktların

layihələrinə müstəqil və ya digər struktur bölmələrlə əlaqəli şəkildə rəylərin hazırlanması;

3.5. Mərkəzi Bankın rəhbərliyi, struktur bölmələri və qurumları tərəfindən sorğu edilən hüquqi məsələlərlə bağlı rəylərin və müvafiq arayışların hazırlanması;

3.6. Mərkəzi Bankın normayaratma fəaliyyəti çərçivəsində hüquqi aktların vaxtaşırı inventarizasiyasının keçirilməsi və nəticələri üzrə müstəqil və ya digər struktur bölmələrlə birlikdə təkliflərin hazırlanması;

3.7. Departamentin büdcə layihələrinin hazırlanması və icrasının təmin edilməsi;

3.8. Mərkəzi Bankın struktur bölmələrinin və qurumlarının qanunvericilikdəki yeniliklər barədə məlumatlandırılması;

3.9. Mərkəzi Bankın normativ xarakterli aktlarının reyestrinin aparılmasını, onların əsllərinin saxlanılmasını, Mərkəzi Bankın internet saytında hüquqi aktların yerləşdirilməsini və mütəmadi yenilənməsini təmin edir;

3.10. Mərkəzi Bankın struktur bölmələrinin və qurumlarının fəaliyyət profilinə və tələbatına uyğun olaraq qanunvericilik məsələləri üzrə tematik seminarların keçirilməsi;

3.11. maliyyə bazarlarının tənzimlənməsi və nəzarəti sahəsində hüquq işinin həyata keçirilməsi üçün zəruri olan arayışların və digər materialların Mərkəzi Bankın struktur bölmələrindən (qurumlarından) alınması və təhlili əsasında müvafiq işlərin aparılması;

3.12. Departamentin funksiyalarının həyata keçirilməsi və işinin səmərəliyini artırmaq məqsədilə dövlət orqanları (qurumları) ilə, habelə xarici ölkələrin mərkəzi banklarının, nəzarət orqanlarının və digər əlaqədar qurumlarının hüquqi xidmətləri ilə əməkdaşlıq edilməsi, aidiyyəti işlər üzrə Mərkəzi Bankın aldığı texniki yardım layihələrində iştirak edilməsi;

3.13. Departamentə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.14. Mərkəzi Bankın fəaliyyəti zamanı qarşıya çıxan digər hüquqi məsələlərin həllində aidiyyəti üzrə iştirak edilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı bölmələrdən ibarətdir:

4.1.1. Bank sektorunun hüquqi təminatı şöbəsi;

4.1.2. Sığorta bazarının hüquqi təminatı şöbəsi;

4.1.3. Kapital bazarlarının hüquqi təminatı şöbəsi;

4.1.4. Ödəniş sektoru və maliyyə texnologiyalarının hüquqi təminatı şöbəsi;

4.2. Departamentə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda

onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.4. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Bank sektorunun hüquqi təminatı şöbəsi:**

5.1.1. banklar, bank olmayan kredit təşkilatları, kredit ittifaqları, poçt rabitəsinin milli operatoru, kredit büroları və valyuta mübadilə məntəqələrinin fəaliyyəti, valyuta tənzimi, habelə əmanətlərin sığortalanması sistemi üzrə Mərkəzi Bankın normayaratma fəaliyyətində iştirak edir, normativ-metodoloji sənədlərin hüquqi ekspertizasını həyata keçirir;

5.1.2. aidiyyəti sahələr üzrə qanunvericiliyin təkmilləşdirilməsi və qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə mövcud qanunvericilikdə yaranmış hüquqi kolliziyaları, boşluqları müəyyən edir, müstəqil və ya əlaqədar struktur bölmələrlə əlaqəli şəkildə müvafiq təkliflər və müvafiq hüquqi akt layihələrini hazırlayır;

5.1.3. aidiyyəti sahələr üzrə Mərkəzi Banka daxil olan hüquqi aktların layihələrinə dair rəy və təkliflər hazırlayır;

5.1.4. aidiyyəti sahələr üzrə nəzarət subyektlərində qanunvericiliyə uyğun olaraq həyata keçirilən nəzarət tədbirlərinin həyata keçirilməsi proseslərinə lazımi hüquqi dəstək verir;

5.1.5. aidiyyəti sahələr üzrə arayışlar və materiallar hazırlayır;

5.1.6. aidiyyəti sahələr üzrə Departamentin digər funksiyalarını icra edir;

5.1.7. rəhbərliyin tapşırığı ilə Departamentin aidiyyəti fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Sığorta bazarının hüquqi təminatı şöbəsi:**

5.2.1. sığorta qanunvericiliyinin təkmilləşdirilməsi və qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə müvafiq hüquqi aktların beynəlxalq təcrübə ilə müqayisəli təhlilini aparır, hüquqi kolliziyaları, boşluqları müəyyən edir, bu sahənin təkmilləşdirilməsi üzrə müstəqil və ya əlaqədar struktur bölmələr ilə birlikdə təkliflər verir və müvafiq hüquqi akt layihələrini hazırlayır;

5.2.2. sığorta bazarının tənzimlənməsi və nəzarət sahələri üzrə Mərkəzi Bankın

normayaratma fəaliyyətində iştirak edir, bu sahədə hazırlanan normativ-metodoloji sənədlərin hüquqi ekspertizasını həyata keçirir;

5.2.3. sığorta bazarına dair Mərkəzi Banka daxil olan hüquqi aktların layihələrinə dair rəy və təkliflər hazırlayır;

5.2.4. aidiyyəti sahələr üzrə nəzarət subyektlərində qanunvericiliyə uyğun olaraq həyata keçirilən nəzarət tədbirlərinin həyata keçirilməsi proseslərinə lazımi hüquqi dəstək verir;

5.2.5. sığorta bazarına dair arayışlar və materiallar hazırlayır;

5.2.6. sığorta bazarına dair Departamentin digər funksiyalarını icra edir;

5.2.7. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. Kapital bazarlarının hüquqi təminatı şöbəsi:**

5.3.1. kapital bazarlarına dair qanunvericiliyinin təkmilləşdirilməsi və qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə müvafiq hüquqi aktların beynəlxalq təcrübə ilə müqayisəli təhlilini aparır, hüquqi kolliziyaları, boşluqları müəyyən edir, bu sahənin təkmilləşdirilməsi üzrə müstəqil və ya əlaqədar struktur bölmələr ilə birlikdə təkliflər verir və müvafiq hüquqi akt layihələrini hazırlayır;

5.3.2. kapital bazarlarının tənzimlənməsi və nəzarət sahələri üzrə Mərkəzi Bankın normayaratma fəaliyyətində iştirak edir, bu sahədə hazırlanan normativ-metodoloji sənədlərin hüquqi ekspertizasını həyata keçirir;

5.3.3. kapital bazarlarına dair Mərkəzi Banka daxil olan hüquqi aktların layihələrinə dair rəy və təkliflər hazırlayır;

5.3.4. aidiyyəti sahələr üzrə nəzarət subyektlərində qanunvericiliyə uyğun olaraq həyata keçirilən nəzarət tədbirlərinin həyata keçirilməsi proseslərinə lazımi hüquqi dəstək verir;

5.3.5. kapital bazarlarına dair arayışlar və materiallar hazırlayır;

5.3.6. kapital bazarlarına dair Departamentin digər funksiyalarını icra edir;

5.3.7. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.4. Ödəniş sektoru və maliyyə texnologiyalarının hüquqi təminatı şöbəsi:**

5.4.1. ödəniş sektoru və maliyyə texnologiyalarına dair qanunvericiliyinin təkmilləşdirilməsi və qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə müvafiq hüquqi aktların beynəlxalq təcrübə ilə müqayisəli təhlilini aparır, hüquqi kolliziyaları,

boşluqları müəyyən edir, bu sahənin təkmilləşdirilməsi üzrə müstəqil və ya əlaqədar struktur bölmələr ilə birlikdə təkliflər verir və müvafiq hüquqi akt layihələrini hazırlayır;

5.4.2. aidiyyəti sahələr üzrə Mərkəzi Bankın normayaratma fəaliyyətində iştirak edir, bu sahədə hazırlanan normativ-metodoloji sənədlərin hüquqi ekspertizasını həyata keçirir;

5.4.3. aidiyyəti sahələrə dair Mərkəzi Banka daxil olan hüquqi aktların layihələrinə dair rəy və təkliflər hazırlayır;

5.4.4. aidiyyəti sahələr üzrə nəzarət subyektlərində qanunvericiliyə uyğun olaraq həyata keçirilən nəzarət tədbirlərinin həyata keçirilməsi proseslərinə lazımi hüquqi dəstək verir;

5.4.5. aidiyyəti sahələrə dair arayışlar və materiallar hazırlayır;

5.4.6. aidiyyəti sahələrə dair Departamentin digər funksiyalarını icra edir;

5.4.7. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏA

Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**